

# Güneydən səslər...

"Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev bu il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## ƏFRASİYAB NURULLAHİ



1978-ci ildə Xudafərində doğulub. Fars dili və ədəbiyyatı üzrə ali təhsil alıb. Hazırda Tehranda yaşayır və müəllim kimi çalışır. 2007-ci ildə "Nəğməsi nağıl həyat" adlı ilk şeir toplusu Tehran "Yaşmaq" yayın evində nəşr olunub. 2016-cı ildə isə "Gözümün gecəsi" adlı digər şeir toplusu Təbrizdə "Aydın sav" nəşriyyatında işıq üzü görüb. Güney Azərbaycan milli oyanış hərəkatı əsasında yazılmış "Hamısı onlardan başladı" adlı kitabı və bir çox milli əhvali-ruhiyyəli şeirləri isə təəssüf ki çap izni ala bilməyib... Bir sıra tənqidi məqalələri vaxtilə "İşıq", "Sancaq" və digər rəsmi, həmçinin qeyri-rəsmi mətbuat orqanlarında çap olunub.

### Orda bir göl vardı

Urmu gölünə
Orda bir göl vardı,
Son gördüyümdə çox bəxtiyardı...
Qızlar,
yuxularını danışarmış sularına.
Gəlinlər,
sirlərini açarmış,
Gələnlərin
qabağına qaçarmış deyirlər...
Gedənlərin,
ardınca atılarmış,
Qalanların
qadasını alarmış,
Mahnılaşarmış
İnsanlaşarmış...
"Qalarsan, qadan allam
Gedərsən, yola sallam"...
Sahil boyu,
tamsına-tamsına qalarmış gecələr...
Orda bir göl vardı,
İndi "Yoxdu" - deyirlər...
"Qurudu"!
"Yerində,
yel vurur, yengələr oynayır" - deyirlər.
Bu qədər rahat,
Bu qədər fərqində olmadan!
İnanmıram,
"Yalandı"- deyirəm,
Masaldı...
Orda bir göl vardı,
Orda bir çöl olamaz,
Əsla olamaz!..

## RZA VƏİDİ ARTAN



1978-ci il Marağa şəhərində dünyaya göz açıb. İlk və orta təhsilini həmin şəhərdə alıb, sonra hüquq və fəlsəfə üzrə bakalavr pilləsində təhsilini davam etdirib. Hazırda vəkil kimi çalışır.

İranda türkcə "Ləzidə Ləzgi" və "Ağrılıq" adlı iki şeir toplusu çap olunub. Elçin Hüseynbəylinin "Metro vadisi" romanını fars dilinə çevirib və çap üçün nəşriyyata təqdim edib.

2012-ci ildə Marağada rəhbərliyi ilə "Alma" adlı ədəbi dərnək fəaliyyətə başlayıb. Dərnəyin xətti ilə ilk dəfə olaraq yeddi şairin əsərlərindən ibarət on kitab nəşr edilib və bu son dərəcə əhəmiyyətli işi davam etdirməkdədir. Artan hazırda Türkiyədə yaşayır və magistratura təhsili alır.

Gülüşlərin kəsilibdir, gileylisən deməli,
Ürək sözüm sənə hər an, "mənə güvən" deməli
Nə var düşünməyə, sevgi gəlirsə ağlımıza
Sonucda birliyə çatsa əgər, həmən deməli
Vətən bu tən, o sınır çizgilər mənə yaramaz
Mən insanam Ana yurdum mən ilə sən deməli
Sevib sevilməyimizdən sora nə var, məncə
Həyat boyu dolanıb təkcə sevgidən deməli
Yığışdırın yara bayraqları, yayın yaşamı
İçində coşmasa sevgi, ona ölən deməli
Ay üzlü bayrağıma bax, udumlu insan əsir
Və başqa cındalara, "hər yelə əsən" deməli
Mənim adım "əbər insan", mənim adım sənsən
Mənə bu gün bu qaranlıqda, qardələn deməli
Nə şeytanın izi qalmış, nə Tanrının, başərə
Gərəklidir tapınıb hər durumda hən deməli
Gileylisən bilirəm, yazdığım kimi olmur
Dodaqların tikilibdir, gileylisən deməli.